

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 94 (21.755)

18 may 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Niderland Krallığı Senatının sabiq sədri, Azərbaycanın Niderlandlı Dostları Qrupunun rəhbəri Rene Van der Lindeni qəbul edib.

Rene Van der Linden Niderland Krallığı ilə Azərbaycan arasında həyata keçirilən birgə iqtisadi fəaliyyətin Azərbaycanın dünyada təqdim olunması işinə töhfə verdiyini vurğulayıb və bunun Niderlandın yerləşdiyi regionda digər ölkələr üçün də səmərəli əməkdaşlığın bir nümunəsi ola biləcəyini deyib.

Prezident İlham Əliyev xoş sözlərə görə minnətdarlığını bildirərək qeyd edib ki, Rene Van der Lindenin əməkdaşlığımızın möhkəmləndirilməsi istiqamətində səyləri ikitərəfli münasibətlərimizin inkişafında mühüm rol oynayır.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 17-də Bakı Ekspo Mərkəzində XXIII Azərbaycan Beynəlxalq Qida Sənayesi "WorldFood Azerbaijan 2017" və XI Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "CaspianAgro 2017" sərgiləri ilə tanış olublar.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Macarıstanın ölkəmizdəki səfiri ilə görüşüb



Mayın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İmre Laslotski ilə görüşüb.

Ali Məclisin Sədri qonağı salamladı və onun Naxçıvana səfərindən məmnunluğunu ifadə etdi.

Səmimi qəbula görə minnətdarlıq edən İmre Laslotski ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin inkişaf etdiyini bildirdi, Naxçıvana səfərini ikitərəfli münasibətlərin nəticəsi kimi dəyərləndirdi. Naxçıvan kimi abad və təmiz şəhərə Avropada nadir hallarda rast gəlindiyini diqqətə çatdıran diplomat muxtar respublikanın inkişafının onda böyük təəssürat yaratdığını və əməkdaşlıq üçün yaxşı perspektivlər açdığını bildirdi.

Ali Məclisin Sədri Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının Ermənistanın işğalçılıq siyasəti nəticəsində ölkənin əsas ərazisindən ayrı düşdüyünü diqqətə çatdırdı, muxtar respublikanın keçdiyi inkişaf yolu haqqında qonağa məlumat verdi. Xalqlarımız arasındakı tarixi bağlılıqdan danışan Ali Məclisin Sədri bu gün Azərbaycan-Macarıstan əlaqələrinin strateji xarakter daşıdığını bildirdi, Naxçıvan Muxtar Respublikası ilə əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu vurğuladı.

Söhbət zamanı gələcək əməkdaşlıq imkanları müzakirə olundu.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanın istehsal, təhsil və mədəniyyət müəssisələri ilə tanışlıq Macarıstan səfirində xoş təəssüratlar yaradıb

***Macarıstanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri İmre Laslotski mayın 16-17-də Naxçıvana səfəri çərçivəsində muxtar respublikanın istehsal, mədəniyyət, təhsil müəssisələrində olub, tarixi abidələri ziyarət edib.***

Diplomat əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gələrək gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət edib.

Naxçıvan Dövlət Xalça Muzeyinə gələn Macarıstanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri İmre Laslotskiyə məlumat verilib ki, burada müxtəlif dövrlərə aid 3 mindən çox maddi-mədəniyyət nümunəsi var.

Qonaq "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə də tanış olub. Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən olan Möminə xatın türbəsi ilə tanışlıq səfirdə xoş təəssürat yaradıb.

Açıq səma altında nümayiş etdirilən daş abidələr haqqında diplomata ətraflı məlumat verilib. Naxçıvan Muxtar Respublikası ərazisindən tapılan müxtəlif dövrlərə aid 450 maddi-mədəniyyət nümunəsi – daşdan düzəldilmiş qoç heykəlləri, daş kitabələr, müxtəlif daş fiqurlar, qəbirüstü sənduqələr qonaqda böyük maraq oyadıb.

Xan sarayında olarkən İmre Laslotskiyə bildirilib ki, bu muzey Naxçıvan xanlığının milli dövlətçiliyimizdəki rolu, Azərbaycanın bu ərazisindəki torpaqlarının qorunub saxlanılmasındakı xidmətləri nəzərə alınaraq yaradılıb. Hazırda 8 ekspozisiya zalından ibarət olan muzeydə 900-dən çox eksponat var.





"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində qonağa eramızdan əvvəl V-III minilliklərə aid olan müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrlərinə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar, qiymətli eksponatlar haqqında ətraflı məlumat verilib.

Naxçıvan Avtomobil Zavodunun istehsal potensialı barədə maraqlanan Macarıstanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfirinə bildirilib ki, burada istehsal prosesi konveyer üsulu ilə təşkil edilib. Zavod Azərbaycanda yeganə müəssisədir ki, avtomobillərin bütün hissələri burada yığılır. Bu da zavodda istənilən modeldə minik və yük avtomobillərinin istehsalına imkan verir. Hazırda zavodda 14 modeldə "NAZ-Lifan" avtomobili istehsal olunur.

Naxçıvan Sənaye Kompleksinin ərazisində olan qonağın diqqətinə çatdırılıb ki, kompleksin ümumi sahəsi 9 hektardır və özündə 4 zavodu birləşdirir. Bunlar gips, gips lövhələr, əhəng və məsaməli beton istehsal edən müəssisələrdir. Müasir avadanlıqların quraşdırıldığı zavodlarda istehsal prosesini avtomatik idarəetmə və təhlükəsizliyə videonəzarət sistemləri yaradılıb. Zavodun illik istehsal gücü 40 min ton gipsdir.

Duzdağ Fizioterapiya Mərkəzinə gələn səfir İmre Laslotskiyə məlumat verilib ki, dağın altına doğru 300 metr uzanan mərkəzdə yüksək səviyyəli xidmət şəraiti yaradılıb. Son illərdə ölkəmizin müxtəlif regionlarından, habelə dünyanın bir çox yerlərindən bronxial-astma xəstələri buraya gələrək müalicə alırlar.

Qonaq daha sonra Naxçıvan Dövlət Universitetində olub. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ali təhsil ocağının strukturu, maddi-texniki bazası, professor-müəllim heyəti, beynəlxalq əlaqələrindən danışıb.

Rektor universitetin müasir elektron təhsil şəbəkəsi və elektron sənəd dövriyyəsi, İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzi, elektron kataloq-kartoteka sisteminə malik müasir elektron kitabxanası haqqında qonağa məlumat verib.

Diplomat ali təhsil ocağının Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin tələbələri üçün Macarıstan-Azərbaycan əlaqələrinə dair mühazirə oxuyub, onların suallarını cavablandırıb.

Naxçıvan Biznes Mərkəzində səfirə məlumat verilib ki, burada muxtar respublikamızın 96 istehsal və xidmət müəssisəsi tərəfindən istehsal edilən məhsullar nümayiş olunur. Bu gün muxtar respublikada 367 növdə məhsul istehsal edilir. Bu məhsulların 121 növü ərzaq, 246 növü qeyri-ərzaq məhsullarıdır. 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbat tamamilə daxili imkanlar hesabına ödənilir. Bütün bunlar – iqtisadiyyatın şaxələndirilməsi və sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi özəl sektorun inkişaf etməsinə yaradılan şəraitin bəhrəsidir.

Mayın 17-də Macarıstanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri İmre Laslotskinin Naxçıvan Muxtar Respublikasına səfəri başa çatıb.

Diplomat "Şərq qapısı" qəzetinə müsahibəsində səfər təəssüratları barədə danışaraq deyib:

– Naxçıvan Muxtar Respublikasına səfərimin çox məhsuldar keçdiyini düşünürəm. Muxtar respublikada bir sıra yüksək səviyyəli görüşlər keçirdim. Hesab edirəm ki, Macarıstan ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında bir çox sahələrdə, o cümlədən iqtisadiyyat və təhsil sahəsində uğurlu əməkdaşlıq əlaqələrini daha da inkişaf etdirə bilərik.

Naxçıvanlılar gülərüz və qonaqpərvərdirlər. Naxçıvandakı inkişaf, buradakı səliqə-sahman və abadlıq məndə xoş təəssürat yaratdı. Buranın təmiz havası, gözəl təbiəti, güclü infrastrukturu var. Bu mənada, mən naxçıvanlılara həsəd aparıram.

Qeyd etmək istərdim ki, bu gün Azərbaycan ilə Macarıstan arasında münasibətlər yüksək səviyyədədir. Çalışacağam ki, Macarıstan ilə Naxçıvan Muxtar Respublikası arasındakı əlaqələr bundan sonra da inkişaf etsin.

**Tural AĞAYEV**

# Şahtaxtının dünəni və bu günü

*Keçmişə qısa ekskurs*

Müstəqilliyimizin ən çiçəkli, ən alvan dövrünü yaşadığımız bu günlərdə haqqında danışacağımız yaşayış yeri təkcə Kəngərli rayonunun deyil, həm də muxtar respublikamızın ən qədim yaşayış məskənlərindən biri olan Şahtaxtı kəndidir. Bu kəndlə bağlı istər muxtar respublika, istərsə də ölkə miqyasında fəaliyyət göstərən mətbuat orqanlarında, tarixi-elmi mənbələrdə xeyli məlumat verilib. Əvvəllər "Qarahasar" adlanan bu qədim yurd yerində aparılan arxeoloji qazıntıların nəticələrinə əsasən belə elmi qənaətə gəlinib ki, bu ərazidə eramızdan əvvəl VI-IV minilliklərdə yaşayış olub, eradan əvvəl II minillikdə isə ətrafı qala divarları ilə əhatə edilən bir yaşayış yerinə çevrilib. Bu, belə deməyə əsas verir ki, o dövrlərdə Şahtaxtı kəndi Cənubi Qafqazda strateji əhəmiyyətə malik bir bölgə olub və daim ciddi şəkildə qorunması böyük əhəmiyyət daşıyıb. Bunu ətrafının qala divarları ilə qorunması faktları da təsdiq edir ki, Qarahasar, yəni Şahtaxtı nə qədər böyük tarixi keçmişə, əlverişli mövqeyə malik olub. Qala divarlarının rayonun Qarabağlar kəndinə qədər uzandığı haqda məlumatlar var. Bu da Qarahasar və Qarabağların bir-birindən ayrı yaşayış yeri olduğu yox, vahid bir yaşayış yeri ola biləcəyi qənaətini yaradır. Qeyd etmək lazımdır ki, XVII əsrdə yaşamış görkəmli türk səyyahı Övliya Çələbi bu ərazilərdə 50 minə yaxın əhalinin yaşaması haqda məlumat verib. Bütün bunlar buranın qədim Azərbaycanın mədəni mərkəzlərindən biri olduğunu sübut edir. Qarahasarla bağlı digər maraqlı bir nüans isə bu ərazinin sonralar "Şahtaxtı" adlanmasıdır. Tarixi qaynaqlarda bununla bağlı müxtəlif məlumatlar da var. Bu məsələnin aydınlaşdırılması üçün bir sıra elmi araşdırmalar aparılmaqdadır. Eyni zamanda xalq arasında müxtəlif rəvayətlər də mövcuddur. Bu qədim yaşayış yerinin Şahtaxtı adlandırılmasının tarixini 1501-ci ildə Şah İsmayıl Xətainin Şərur döyüşündən sonra bu ərazilərdə bir müddət qalması ilə əlaqələndirənlər var. Amma şahla bağlı olan "Şah bağı", "Şah arxı" kimi toponimlər ərazidə daim məskunlaşan bir şahın olduğunu təsdiqləyən faktlardır. Bu yurd yerinin Şahtaxtı adlandırılması ilə bağlı ən əsaslı fikirlərin müəllifi rus hərbi tədqiqatçısı Konstantin Nikolayeviç Smirnovdur.

*Müasir Şahtaxtı...*

Şahtaxtı kəndi müstəqillik illərində, sözün həqiqi mənasında, əsl intibah dövrü yaşamaqdadır. Müstəqilliyimizin quruculuq töhfələrindən bu kənd də xeyli bəhrələnib.

Muxtar respublikamızın əksər kənd yaşayış məntəqələrində olduğu kimi, Şahtaxtı kəndində də kompleks quruculuq tədbirləri həyata keçirilib. 2010-cu ilin dekabr ayında bu yaşayış məntəqəsində yeni sosial obyektlər – kənd mərkəzi, həkim ambulatoriyası, ticarət mərkəzi tikilib, Qıvraq qəsəbəsi ilə kəndi, eyni zamanda Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsini birləşdirən 5 kilometr uzunluğunda yol yenidən qurularaq istifadəyə verilib. Açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Şahtaxtı dünyada məşhur Azərbaycan kəndlərindən biri kimi tanınır. Bu kənd ona görə tanınır ki, böyük şəxsiyyətlər yetişdirib. Həmin şəxsiyyətlərin Azərbaycan dövlətçiliyinin qorunmasındakı xidmətləri, muxtar respublikamızın ictimai-siyasi həyatında yaxından iştirakı, ölkəmizdən kənarda siyasi fəaliyyətləri Şahtaxtını məşhurlaşdırıb. Onların bir hissəsi Şahtaxtinskilər soyadını daşıyır. Ona görə də Şahtaxtı kəndinin abadlaşdırılması, onun əvvəlki şöhrətinə uyğun görkəm alması üçün müəyyən tədbirlər görülüb... Dövlət belə tədbirləri həyata keçirməklə kənd sakinlərinə problemlərini vaxtında həll etmək üçün şərait yaradıb, onlara qayğı göstərib. Şahtaxtı kəndində yaşayanlar bu qayğıdan səmərəli istifadə edərək həyat səviyyələrini yaxşılaşdırmaq üçün fəal olmalıdırlar".***



Bu gün kənddə iqtisadiyyat inkişaf etdirilir, əhalinin rifah halı gündən-günə yaxşılaşır. Əkinçilik Şahtaxtıda kənd sakinlərinin əsas məşğuliyyət sahəsinə çevrilib. Əkin sahələrinin su təminatı problemi Arpaçay sol sahil kanalı və Araz çayı üzərində quraşdırılmış su nasosları vasitəsilə həll edilib. Muxtar respublikamızda meyvəçiliyin və tərəvəzçiliyin inkişaf etdirilməsi ilə bağlı müvafiq dövlət proqramının icrasına uyğun olaraq yaşayış məntəqəsində yeni meyvə bağları salınıb. Heyvandarlığın inkişaf etdirilməsi də diqqət mərkəzində saxlanılır. Sosial problemlərin həll edilməsində də müsbət nəticələr əldə olunub. Kənd sakinlərinin içməli su, qaz, elektrik enerjisi ilə təminatında heç bir çətinlik olmadığı kimi, rabitə xidmətindən də razılıq edilir. Kənddə əhalinin yaşayış səviyyəsinin yüksəlməsi yeni minik avtomobillərinin sayının artmasında, fərdi evlərin tikintisində özünü bir daha büruzə verir.

Bəli, Şahtaxtı kəndi muxtar respublikamızın qədim və maraqlı tarixə, mühüm strateji əraziyə malik yurd yerlərindən biridir. Yüz illər boyu karvan ticarətinə şahidlik etmiş, mədəni və iqtisadi əlaqələrin inkişafına böyük töhfə vermiş bu kənd tarixi missiyasını bu gün də uğurla davam etdirir. Fərqli olan isə bu tarixilik üzərində müasirliyin təntənəsidir.

Ancaq bu inkişaf heç də asan başa gəlməyib. Müstəqilliyimizin ilk illərində bir çox yaşayış yeri kimi, bu kənddə də əhali acınacaqlı vəziyyətdə yaşayıb və ağır günlər keçirib, bəziləri müxtəlif yerlərə köç edib. Bu günləri yaxşı xatırlayan kənd sakinlərindən biri də İbrahim İmanovdur. Şahtaxtının sayılıb-seçilən ağsaqqallarından biri olan İbrahim İmanov uzun illər Şahtaxtı kənd tam orta məktəbində müəllimlik edib. Hazırda təqaüddədir. Onunla həmin dövr barədə xeyli söhbət etdik:

– İbrahim müəllim, bu günün Şahtaxtı kəndi ilə 90-cı illərin əvvəllərini müqayisə etmək olarmı?

– Xeyr, 90-cı illərin əvvəllərində çox ağır həyat tərzi keçirirdik. Kənddə aclıq hökm sürürdü. Hakim dairələrin özbaşınalığı bu kənddən də yan keçməmişdi. Mən o dövrdə məktəbdə müəllim işləyirdim. Təhsilə maraq azalmışdı, şagirdlər dərslik tapa bilmirdilər. Bir dərslikdən 3-4 nəfər istifadə edirdi. Dərsliklər indiki kimi dövlət tərəfindən pulsuz verilmirdi. Gərək pulla alaydın. Onu da tapa bilsəydin. Qış aylarında isə şagirdlərin böyük bir hissəsi məktəbə gəlmir, dərslərdə iştirak etmirdi. Çünki siniflər çox soyuq olurdu. Neft sobalarının tüstüsü dərs keçməyi çox çətinləşdirirdi. Müəllimlərin əməkhaqları çox aşağı idi. Aldığımız məvacib ailəmizin biraylıq ərzağını almağa belə, yetmirdi, digər ehtiyaclar qalsın bir tərəfə.

İbrahim müəllim söyləyir ki, bu yaxınlarda yolum məktəbə düşmüşdü. Mənim üçün doğma olan bu ünvana tez-tez gedirəm. Bu dəfə nəvəmin dərsləri ilə maraqlanmaq üçün getmişdim. Məktəbdə gördüklərim məni həddindən artıq heyrətləndirdi. İndiki dövrdə məktəbdə işləmədiyim üçün çox təəssüflənirəm. Yeni təmir olunmuş məktəb şahtaxtılılara dövlətimizin böyük qayğısının ifadəsidir. Burada müasir informasiya-kommunikasiya sistemləri quraşdırılıb, elektron lövhəli siniflər, gözəl kabinələr, laboratoriyalar yaradılıb. Vallah, əksəriyyətimizin evində məktəbdə quraşdırılmış istilik sistemi kimi sistem yoxdur. Dövlətimizin təhsil sahəsinə bu qədər diqqət və qayğısı məni çox duyğulandırır. Müəllimlərin də əməkhaqları bir neçə dəfə artırılıb, sosial təminatları yaxşılaşdırılıb.

Doğrudan da, bu gün Şahtaxtı kəndində görülən işlər göz oxşayır. Əvvəllər mövcud olan köhnə tikililəri indi yeni təmirli məktəb binası, gözəl kənd mərkəzi, sakinlərə tibbi xidmət göstərən həkim ambulatoriyası, xidmət mərkəzi əvəz edib. Kənd əhalisi məişət tələbatlarını ödəmək üçün artıq rayon mərkəzinə, Naxçıvan və Şərur şəhərlərinə getməyə ehtiyac duymur. Görülən işlər, sadəcə, bununla bitmir. Kəndin içərilərinə doğru getdikcə buradakı dəyişiklikləri də görmək mümkündür. Hər yer səliqə-sahmanlıdır. Bunu görəndə əvvəllər hər addımbaşı rast gəldiyimiz xoşagəlməz mənzərələr bir anlığa göz önündə canlanır. Demək olar ki, kənd sakinlərinin rahatlığı üçün hər bir iş görülüb. Kənddə əhalinin su ehtiyacının qarşılanması üçün bu yaxınlarda 40 mənzili içməli su ilə təmin edə biləcək su xəttinin çəkilməsini qeyd etmək yerinə düşər. Əvvəllər buradan köçüb gedənlər artıq geri qayıdırlar.

*Bu gün Azərbaycan dünyanın sürətlə inkişaf edən ölkələrindən biridir. Onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamız isə bu inkişafın önündə gedir. Ən ucqar yaşayış yerlərimiz belə, çiçəklənir, gözəlləşir. Daimi iş yerləri açılır. Fərdi təsərrüfatla məşğul olanlara qayğı göstərilir. Dövlətimizin həyata keçirdiyi uğurlu siyasətin nəticələrini Şahtaxtıda da görmək olar. Artıq hər bir Şahtaxtı sakini gələcəyə inamla baxa bilir.*

**Anar QASIMOV**
***Akademik Zərifə Əliyeva adına***
***Şahtaxtı kənd tam orta məktəbinin müəllimi***

## Yengicə kəndində bir hektar sahədə fındıq bağı salınıb

Şərur rayonunun Yengicə kəndi qədimdən özünəməxsus meyvəçilik ənənələri ilə məşhurdur. Bu kəndin əriyi, alması, alçası dadı-tamı, ətri və gözəl rəngi ilə digər yerlərdə yetişdirilən eyniadlı meyvələrdən əsaslı şəkildə seçilir. Xüsusilə Yengicə armudu xəstələrə dərmandır. Kənddəki həyətlərin, demək olar ki, hamısında olan yaşlı cəviz ağaclarından hər il xeyli məhsul dərilir. Aqrar islahatlar zamanı torpağın öz sahibinə qaytarılmasından sonra bu kənddə də geniş ərazilərdə meyvə bağları salmağa maraq xeyli artıb.

Kənddə yaşayan fotoqraf Cabbar Seyidovun həyətində müxtəlif meyvə ağacları, üzüm tənəkləri, rəngarəng gül-çiçəklər vardır. Ötən ilin payızında o, oğlu Babəklə birlikdə fındıq bağı salmağı planlaşdırıb. Bunun üçün ilkin olaraq Çomaxtur kəndi ilə Yengicə arasındakı "Suaparan" adlanan sahədə bir hektar münasib yer seçib, üzvi və mineral gübrələrlə zənginləşdirdikdən sonra şumladıblar. Qarşıya qoyulan məqsədə nail olmaq üçün dövlət kreditindən də istifadə ediblər.

Erkən yazda sahə hamarlanıb, cərgələr açılıb, çalalar qazılıb. Babək Türkiyə Respublikasının Samsun vilayətindəki fındıqçılıqla məşğul olan bir fermer ilə əlaqə yaradıb, onların təcrübəsi ilə tanış olub. Nəzərdə tutulmuş sahə əkinə tam hazır olandan sonra həmin tingçilik təsərrüfatından 2 min ədəd cavan fındıq tingləri alıb gətirib. Əkilən körpə fidanlar artıq yaşıllaşıb.

Söhbət zamanı gənc bağban Babək Seyidov dedi:

– Muxtar respublikamızda meyvəçilik və tərəvəzçiliyin inkişafı ilə bağlı görülən işlər və torpaq mülkiyyətçilərinə göstərilən qayğı mənim bu sahəyə olan marağımı artırıb. Buna görə də bu işlə məşğul olmağı qarşıma məqsəd qoydum. Əvvəlcə atamla məsləhətləşdim. O, təklifimi bəyəndiyini bildirdi və mənə öz məsləhətləri ilə kömək etdi. Türkiyəli mütəxəssislərin dediyinə görə, əkdiyimiz "Kersun" sortlu fındıq kolları muxtar respublikamızın təbii iqlim şəraitinə uyğundur və 30 dərəcəyədək şaxtaya davam gətirir. Torpağa basdırandan 2-3 il sonra məhsula düşür, ilk illərdə hər kol azı 5-6 kiloqram məhsul verir. Meyvələrin orta yağlılıq dərəcəsi də yüksəkdir, ona görə alıcısı həmişə çox olur.

Babək gələcək planlarından da danışdı. Dedi ki, payızda daha 35 min ədəd ting alacağam. Əlavə olaraq 3,5 hektar sahədə fındıq bağı salacağam. Tinglərin qalanını isə kəndimizdəki qonşu təsərrüfatlar arasında bölücəyik. Gənc bağban qeyd etdi ki, kəndimizdə fındıq və cəviz bağları salmağa maraq göstərənlərin sayı getdikcə artır.

**Elman MƏMMƏDOV**

## Əkin sahələrinin su təminatı yaxşılaşdırılır



*Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi tərəfindən aprel ayında nəzərdə tutulan tədbirlər vaxtında yerinə yetirilmişdir.*

Suvarma mövsümünü mütəşəkkil keçirmək məqsədilə sututarlarına suvarma suyunun doldurulması davam etdirilmişdir.

Hazırda su anbarlarında 260 milyon kubmetrdən artıq su ehtiyatı vardır. Bu dövrdə 9 kilometr magistral kanal, 45 kilometr ara arxlar, 3 kilometr kollektor lildən təmizlənmiş, 2 kilometr yeni suvarma boru xətti çəkilmiş, 7 kilometr suvarma boru xətti və 10 kilometr içməli su xətti təmir edilmişdir.

Yaşayış məntəqələrini və əkin sahələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə Naxçıvançayda, Cəhriçayda, Arpaçayda və Qahab selovunda 4 kilometrə yaxın istiqamətləndirici bənd tikilmişdir.

"Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində Naxçıvan şəhərində çirkab sutəmizləyici qurğunun tikintisi davam edir. Layihəyə uyğun olaraq Şərur şəhərində 4198 metr su xətti çəkilmiş, 30 ev birləşməsi aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

## Daha bir kənd stadionu yenidən qurulur

Uğurlu idman siyasəti nəticəsində muxtar respublikada mütəmadi olaraq tədbirlər, yarışlar, turnirlər təşkil edilir, hər il idman infrastrukturu müasirləşdirilir. Naxçıvan Muxtar Respublikasında yaradılan müasir idman infrastrukturu burada beynəlxalq səviyyəli yarışları yüksək səviyyədə keçirməyə imkan verir. Bu gün idmançılar üçün yaradılan şərait onların beynəlxalq arenalarda uğur qazanmasına şərait yaradır. Mövcud infrastruktur eyni zamanda uşaq və yeniyetmələrin, gənclərin sağlam, peşəkar idmançı kimi formalaşması baxımından böyük rol oynayır.

Muxtar respublikanın şəhər və rayonlarında yenilənən idman obyektləri insanların idmana olan marağını gündən-günə artırmaqdadır. Belə idman obyektlərindən biri də Şərur rayonundakı Dəmirçi kənd stadionudur. Burada yenidənqurma işləri aparılır. Uzunluğu 105 metr, eni isə 60 metr olan təbii ot örtüklü stadionun ərazisində 118 nəfərlik oturacaqlar quraşdırılacaq.



Bununla yanaşı, stadionun ərazisində 50 tamaşaçı tutumlu voleybol meydançası da inşa ediləcək və idman qurğuları quraşdırılacaq. Stadionda muxtar respublika çempionatı üzrə oyunların, həm də rayon birinciliklərinin keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, bu, muxtar respublikanın kəndlərində yenidən qurulan 5-ci stadiondur.

**Ceyhun MƏMMƏDOV**



*YUNESKO-nun Beynəlxalq Muzeylər Şurasının 1977-ci ildə keçirilən 11-ci konfransında qəbul olunmuş qərara əsasən hər il mayın 18-i dünyada “Beynəlxalq Muzeylər Günü” kimi qeyd edilir.*

*18 may Beynəlxalq Muzeylər Günüdür*

# Muzeylər mədəni irsin qorunduğu maddi-mənəvi sərvətlər xəzinəsidir

Muzeylər keçmişlə bağlı həqiqəti təcəssüm etdirən, mədəni irsi qoruyan, tədqiq və təbliğ edən mədəniyyət ocaqlarıdır. Muxtar respublikamızda da muzey işinin özünəməxsus inkişaf tarixi vardır. XIX əsrin sonlarında böyük yazıçı və dramaturqumuz Cəlil Məmmədquluzadə Nehrəm kənd məktəbində muzey yaratmaq təşəbbüsü ilə Xalq Məktəbləri İdarəsinə yazılı müraciət etmiş və Azərbaycanda ilk dəfə olaraq bu kənd məktəbində Naxçıvanın tarixinə dair maddi-mədəniyyət nümunələrinin toplandığı muzey yaratmışdır. Naxçıvan Sovet Sosialist Respublikası Xalq Komissarları Sovetinin 1924-cü il 30 oktyabr tarixli qərarına əsasən Naxçıvanda Tarix-Etnoqrafiya Muzeyi təşkil edilmişdir. 1926-cı ildə Naxçıvan şəhər sakini Balabəy Əlibəyovun yaratdığı şəxsi muzey dövlət muzeyi kimi fəaliyyət göstərməyə başlamışdır. 1925-ci ildə Azərbaycan üzrə yaradılan cəmiyyətin bir şöbəsi kimi fəaliyyət göstərməyə başlayan “Naxçıvanı Tədqiq və Tətəbbö” Cəmiyyətinin də muzeyin zənginləşməsində mühüm xidmətləri olmuşdur.

Azərbaycanda muzey işinin, muzeyşünaslığın inkişafı ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra mümkün olmuşdur. Ulu öndər ötən əsrin 70-80-ci illərində Azərbaycanda yeni muzeylərin yaradılması, onların bazasının möhkəmləndirilməsi, muzey fondlarının zənginləşdirilməsi və ekspozisiyaların müasir şəkildə qurulması üçün mühüm tədbirlər həyata keçirmişdir. Həmin dövrdə ölkəmizdə bu sahəni inkişaf etdirmək üçün Azərbaycan Muzeylər İdarəsi, Muzey İşi üzrə Respublika Elmi-Metodik Mərkəzi, Muzeylərin Bədii Tərtibatı Müəssisəsi, Muzey Sərvətlərinin və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzi kimi qurumlar yaradılaraq fəaliyyətə başlamışdır. Qısa zaman ərzində Azərbaycanın 60-dək rayonunda tarix-diyarşünaslıq muzeyləri yaradılmışdır. Məhz bu dövrdə Şərur, Babək, Ordubad, Culfa və Şahbuz rayonlarında tarix-diyarşünaslıq muzeyləri yaradılmışdır. Halbuki 1969-cu ilədək Azərbaycanda cəmi 29 muzey fəaliyyət göstərmişdir ki, bunlardan da yalnız biri xatirə muzeyi kimi nəzərdə tutulmuşdur. Ümummilli liderimizin hakimiyyəti illərində ölkəmizdə 111 müxtəlif profilli muzey yaradılmışdır.

Müstəqillik illərində də ulu öndərin rəhbərliyi ilə muzey işi öz inkişafının yeni dövrünə qədəm qoymuşdur. Muzey işçilərinin respublika müşavirəsi keçirilmiş, “Respublikada muzey işinin vəziyyəti və onun yaxşılaşdırılması haqqında” qərar qəbul edilmişdir. 2000-ci ildə qəbul edilən “Muzeylər haqqında” Azərbaycan Respublikasının Qanunu ölkəmizdə muzeylərin fəaliyyətinin təşkilati-hüquqi əsaslarını müəyyən edir və bunlarla bağlı münasibətləri tənzimləyir. Qanunda muzey fəaliyyəti sahəsində dövlət siyasətinin əsas prinsipləri və dövlətin vəzifələri, muzeylərin hüquqları, muzey fondları, muzeylərə dövlət qayğısı və nəzarəti, bu sahədə beynəlxalq əməkdaşlıq





kimi əhəmiyyətli məsələlər təsbit edilmişdir.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də bu sahədə uğurlu addımlar atılır, mühüm işlər həyata keçirilir. Ölkəmizdə 200-dən çox muzeyin fəaliyyət göstərməsi bunun bariz ifadəsidir. Dövlət başçısının “Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında” 2007-ci il 6 mart tarixli Sərəncamı və 2009-cu il 22 may tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı” bu sahənin hüquqi bazasının formalaşmasına, dünyanın nüfuzlu muzeyləri ilə əlaqələrin genişlənməsinə imkan yaratmışdır. Dövlət başçısı muzey işinə mühüm əhəmiyyət verərək demişdir: ***“Xalqımızın ən qədim zamanlarından müasir dövrədək tarixini və mədəniyyətinin inkişaf yolunu əks etdirən Azərbaycan muzeyləri ölkəmizdə zəngin mədəni irsin qorunmasında və təbliğ olunması işində mühüm rol oynayır. Bu gün muzeylərimiz nadir sənət incilərinin və milli sərvətlərin nümayiş etdirildiyi geniş şəbəkəyə malik olub, respublikamızın bütün bölgələrini əhatə edir”.***

Qədim diyarımızda da muzeylərin fəaliyyətinin canlandırılması, yeni muzeylərin yaradılması sahəsində mühüm işlər görülür, bu mədəniyyət ocaqları muzeyşünaslığın yeni nailiyyətlərinə əsaslanaraq qurulur, Azərbaycan tarixinin yeni uğurlu səhifələri muzey ekspozisiyalarında əksini tapır. Təbii ki, ötən əsrin 80-90-cı illərində Naxçıvan Muxtar Respublikasında baş verən dağıdıcı proseslər, sosial-iqtisadi böhran, cəmiyyətdəki qeyri-sabitlik muzeylərin də tamaşaçılarını itirməsinə səbəb olmuş və çətinliklər yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində muzeylərimiz müasir tələblər əsasında yenidən qurulmuş, muzey sahəsində mühüm işlər həyata keçirilmişdir. 1997-ci ilədək Naxçıvan Muxtar Respublikasında 13 muzey fəaliyyət göstərirdisə, hazırda muxtar respublikada 1 rəsm qalereyası və 28 müxtəlif profilli muzey fəaliyyət göstərir. Bu mədəniyyət ocaqlarında xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən 114 mindən çox eksponat toplanmışdır. Ötən il muxtar respublikanın muzeylərinə 1468 eksponat daxil olmuşdur. Muzey fondlarının zənginləşdirilməsi diqqət mərkəzində saxlanılır. Bu ilin 4 ayında muzeylərimiz 329 yeni eksponatla zənginləşdirilmişdir. 2012-ci ildə Bəhruz Kəngərli Muzeyi əsaslı şəkildə yenidən qurulmuş, 2013-cü ildə “Gəmiqaya” Tarix-Bədii Qoruğu və muzey üçün bina istifadəyə verilmişdir. Tarix-Bədii Qoruq dəniz səviyyəsindən 3700 metr yüksəklikdə yerləşməklə açıq səma altında nadir muzeylərdən biridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında 2013-cü il 5 iyun tarixli Sərəncamına əsasən Naxçıvan şəhərində daha bir muzey yaradılmışdır. 2014-cü ildə Şahbuz rayonundakı Nursu kəndində Xalq şairi Məmməd Arazın ev-muzeyi, Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi istifadəyə verilmişdir. 2015-ci ildə Naxçıvan şəhərində Xatirə Muzeyinin, Şərur rayonundakı Cəlilkənddə Cəlil Məmmədquluzadənin Xatirə Muzeyinin yeni binaları, həmçinin Ordubad şəhərində Məhəmməd Tağı Sidqinin ev-muzeyi fəaliyyətə başlamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Culfa rayonunda “Əlincəqala” tarixi abidəsinin bərpa edilməsi haqqında” 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən ötən il qalada bərpa işləri başa çatdırılmış və burada muzey yaradılmışdır.



Muxtar respublikamızda geniş muzeylər şəbəkəsi yaradılmaqla bərabər, həm də onların müxtəlif profilli olmasına diqqət yetirilir. Muxtar respublika əhəmiyyətli muzeylərlə yanaşı, tarix-diyarşünaslıq muzeyləri, ev-muzeyləri, xatirə muzeyləri, muzey kompleksləri, dövlətçilik tariximizlə bağlı muzeylərin yaradılması həmişə diqqət mərkəzində saxlanılır. Bütün bunlar mədəni irsimizin qorunması, gənc nəslin mənəvi-estetik, ideya-siyasi dünyagörüşünün zənginləşməsində və vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır. Muxtar respublikanın rayonlarında da muzeylərin fəaliyyət göstərməsi bura gələn insanların zəngin tarix və mədəniyyətimizlə yanaşı, görkəmli şəxsiyyətlərimiz haqqında da ətraflı məlumat almalarına imkan verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Muzeylər Azərbaycan xalqının tarixini, böyük şəxsiyyətlərimizin həyatlarını, yaradıcılığını, fəaliyyətlərini özündə əks etdirir. Xalqın tarixi həm kitablarda yazılmaqla, həm də muzeylərdə qorunmaqla gələcək nəsillərə çatdırılır. Muzeylər bizim keçmişimizi özündə yaşadan, gələcəyə daşıyan yerlərdir”.***

Gənclərimizin muzeylərimizdə olması onların qədim və zəngin tariximiz və bu günümüz haqqında dərin biliklərə, geniş dünyagörüşünə malik olmasına, milli dəyərlərə, milli-mədəni və tarixi irsimizə məhəbbət ruhunda formalaşmasına xidmət edir. Bunun üçün muxtar respublikanın təhsil müəssisələrinin muzeylərlə əlaqələrinə xüsusi diqqət ayrılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamına əsasən, muxtar respublikada məktəb-muzey şəbəkəsi yaradılmış, Azərbaycanın tarixi və mədəniyyəti, görkəmli şəxsiyyətlərimizlə bağlı distant dərslər keçilmişdir. Ötən il, ümumilikdə, 22 distant dərs keçilmiş, dərslərə hər dəfə muxtar respublikanın 200-dən çox ümumtəhsil, orta ixtisas və peşə məktəbi qoşulmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” 2015-ci il 27 iyul tarixli Sərəncamına əsasən muxtar respublikanın ali təhsil müəssisələrində muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması, tarix, turizm-otelçilik ixtisasları üzrə təhsil alan tələbələr üçün açıq dərslərin təşkili davam etdirilir. Bu ilin birinci rübündə muzeylərdə 92 açıq, 7 distant dərs keçilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Muzeylərlə əlaqələrin gücləndirilməsi haqqında” 2014-cü il 19 dekabr tarixli Sərəncamına uyğun olaraq, mərkəzi və yerli icra hakimiyyəti orqanları kollektivlərinin muzeylərə gedişi maddi-mənəvi sərvətlər xəzinəsi olan muzeylərə marağın artmasına, tariximizin, mədəni irsimizin və dövlətçilik ənənələrimizin hərtərəfli öyrənilməsinə imkanlar açmışdır. Muxtar respublikanın muzeylərinə gələnlərə pulsuz xidmət göstərilir. Ötən il muzeylərimizi 320 mindən çox tamaşaçı ziyarət etmişdir ki, onlardan 43 mindən çoxu xarici ölkə vətəndaşıdır. Bu ilin dörd ayında isə muzeylərimizdə 132 mindən artıq tamaşaçı olmuşdur ki, onların da 31 mindən çoxu xarici ölkə vətəndaşıdır. Naxçıvanda bir sıra muzeylərin internet saytı istifadəyə verilmiş, saytda muzey ekspozisiyalarını internet üzərindən virtual olaraq birbaşa izləmək imkanı yaradılmışdır. Bu günə qədər həmin muzeyləri 57 min 155 tamaşaçı virtual olaraq izləmişdir.

***Muxtar respublikanın muzeylərində 300-dək əməkdaş çalışır. Son illər muzey işçilərinin Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülməsi, medallarla təltif edilməsi onların əməyinə verilən yüksək qiymətin ifadəsidir. Muzey işçilərinin peşə hazırlığının səviyyəsinin yüksəldilməsi məqsədilə təşkil olunan seminar-treninqlər, dəyirmi masalar, elmi konfranslar muzey işinin daha da təkmilləşdirilməsinə öz töhfəsini verəcəkdir.***

**Naxçıvan Muxtar Respublikası
Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti**







***Ermənilər tarixboyu Azərbaycanın dilbər guşələrindən olan Laçını “Qarabağın qara qapısı” adlandırıblar. Onlar heç xəyallarına gətirə bilməzdilər ki, nə vaxtsa bu yerlərin əhalisini dədə-baba torpaqlarından didərgin sala biləcəklər. Çünki hələ 1905-ci, 1918-1920-ci illərdə Xosrov və Sultan bəy qardaşlarının rəhbərliyi altında bu yurdun qəhrəman oğulları Qarabağda, Laçında erməni təcavüzkarlarına ağır zərbələr vurub, xüsusi qəhrəmanlıqlar göstərib, uzun müddət ermənilərin çirkin niyyətlərinin həyata keçirilməsinin qarşısını alıblar. Ona görə də bu rayon həmişə ermənilərin yaddaşında qorxulu və sehrli məkan kimi qalıb. Düz 25 il əvvəl bu gün – 1992-ci il may ayının 18-də Laçının ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin növbəti qurbanına çevrilməsi həmin dövrdə hakimiyyətdə olanların səriştəsizliyi və xəyanətkarlığı üzündən baş verib. Laçın Azərbaycanda siyasi böhranın, hakimiyyətsizliyin, AXC-Müsavat cütlüyünün vəzifə hərisliyinin qurbanı olub.***

# Biz Laçına qalib kimi dönəcəyik



Ermənistan silahlı qüvvələri Laçın rayonunun bir şəhərini, bir qəsəbəsini, 125 kəndini, 1835 kvadratkilometrlik ərazisini işğal edib. Bu qəsbkarlıq nəticəsində rayon ərazisindəki 54 dünya və 200-dən çox yerli əhəmiyyətli tarixi, mədəniyyət və dini abidələrimiz erməni vandalizminə məruz qalaraq dağıdılıb. 13 min 745 yaşayış evi, 48 sənaye, 63 kənd təsərrüfatı, 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə, 462 ticarət, 96 məişət, 30 rabitə, 2 avtonəqliyyat müəssisəsi və digər obyektlər bütün əmlakı ilə birlikdə talan və məhv edilib. 72 min hektarlıq yaylaq sahəsi, 34 min hektar nadir və zəngin meşə zolağı olan Laçın rayonunda ictimai və şəxsi təsərrüfatlardakı 25 min baş iribuynuzlu heyvan və 200 min başdan artıq davar, minlərlə arı ailəsi, əhalinin bütün varidatı işğal zonasında qalaraq qarət edilib. Müxtəlif rəngli mərmər, kobalt, bazalt, civə, qızıl, dəmir, uran, qranit yataqları, mineral bulaqlar, yeraltı və yerüstü sərvətlərimiz bu gün də dünya ictimaiyyətinin gözü qarşısında talan edilir. Bütövlükdə, odövrkü qiymətlərlə rayona dəymiş ziyanın miqdarı 7 milyard ABŞ dollarından çoxdur. Bu rəqəm ötən 25 il ərzində ikiyə qatlanıb. Çünki Laçının iqtisadi və turizm potensialı çox yüksəkdir.

Təbii ki, bu itkilərimiz içərisində ən ağırı və əvəzolunmazı işğal zamanı rayon sakinlərindən 238 nəfərin ermənilər tərəfindən ağır işgəncələrə və insanlığa yaraşmayan üsullarla öldürülməsi, 66 nəfərin itkin düşməsi, 120 nəfərin əlil və şikəst olması, yüzlərlə uşağın bir valideynini, o cümlədən 31 uşağın isə hər iki valideynini itirməsidir. Ancaq hadisələrdən 25 il ötməsinə baxmayaraq, itkin düşmüş və girov götürülmüş 66 nəfərin taleyi bu gün də məlum deyil.

İşğal nəticəsində 58 mindən çox rayon sakini respublikanın 59 rayon və şəhərində 800-dən çox yaşayış məntəqəsinə səpələnib. Həmin illərdə ev-eşiklərini itirmiş məcburi köçkünlər yeraltı qazma, daxma, çadır və vaqonlarda, yararsız binalarda ağır vəziyyətdə yaşamağa düçar olublar.

### *Böyük xilaskar gəlməsəydi...*

Bu gün hər kəs qəbul edir ki, əgər ümummilli lider Heydər Əliyev həmin illərdə hakimiyyətdə olsaydı, Laçın da digər rayonlarımız kimi erməni işğalına məruz qalmazdı. Bu da həqiqətdir ki, 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyev xalqımızın çağırışı ilə yenidən hakimiyyətə gəlməsəydi, Azərbaycan adlı dövlət dünya xəritəsindən silinəcək, nainki laçınlılar, hətta respublika əhalisinin böyük bir qismi yurdsuz-yuvasızlar kimi qonşu ölkələrə səpələnəcəkdilər. Bu gün Azərbaycanın dövlət müstəqilliyindən, Azərbaycan xalqının varlığından da danışmaq mümkün olmayacaqdı. Çünki həmin illərdə ölkəmiz məqsədli şəkildə elə bir informasiya blokadasına salınmışdı ki, bəzən burada baş verən hər hansı bir hadisənin dünyaya çatdırılması imkanları, demək olar ki, yox dərəcəsində idi. Dünyanın məsələyə biganə münasibətini də nəzərə alsaq, onda hansı dəhşətli bir aqibətdən xilas olunduğumuzu daha aydın şəkildə təsəvvür edə bilərik.

Ümummilli liderimiz hakimiyyətə gələndən sonra bütün bunlara son qoyub. Həyata keçirilən qətiyyətli siyasət nəticəsində informasiya blokadası aradan qaldırılıb, qüdrətli ordu yaradılıb, müstəqilliyimiz, varlığımız xilas edilib. Ötən 25 ildə ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin həyata keçirdikləri bir sıra tədbirlər yurdlarından didərgin düşmüş laçınlıların problemlərinin həllinə şərait yaradıb.

### *Laçın tarixi Azərbaycan torpağıdır*

Tarixçilərin ümumi qənaəti belədir ki, qədim Azərbaycan yurdu olan Laçında məskunlaşmanın tarixi eramızdan əvvəl II-I minillikdən başlayır. Laçın rayonunun Mirik kəndi ərazisindəki Qaranlıq kaha, Bayqara mağaraları, Hoçaz kəndindəki mağara-məbəd bu qədim tarixin nişanələridir.

Maraqlı məqam ondan ibarətdir ki, Qobustan və Gəmiqayadan sonra məhz Laçın ərazisində qədim qaya təsvirləri, daş üzərində süjet xarakterli oymalar aşkara çıxarılıb. Bütün bunlar isə, təbii ki, protoazərbaycanlıların qədim mədəni inkişafının müxtəlif bölgələrimizdə meydana çıxan ortaq təzahürləridir.

Rayon ərazisindəki IX əsrə aid Ağoğlan qəsri, XI əsrə aid Dəmrovlu Pir Məbədi, XII əsrin abidəsi olan Malik-Əjdər türbəsi, XV əsrin yadigarı Uşaq qalası, XVII əsrin nişanələrini saxlayan Kar günbəz, orta əsrlərin yadigarları olan birtağlı və ikitağlı körpülər, su dəyirmanları və sair kimi tarixi abidələr öz memarlıq üslubu ilə qədim dövrlərdən ərazidə türk tayfalarının məskən saldığını təsdiqləyir.

Çar Rusiyası dövründən başlayaraq 1930-cu ildə müstəqil inzibati rayon kimi təşkil olunana qədər Qarabağ xanlığı və Zəngəzur qəzasına daxil olmuş bu ərazinin ilk adı türk “Abdal” tayfasının adından götürülüb. 1924-cü ilə qədər indiki Laçın rayonu məhz “Abdallar” adlanıb. Bu ad “Ağ Hun” tayfasının adını əks etdirir. Əsasında “Abdal” tayfasının adı olan etnotoponimlərə başqırdlarda, qaraqalpaqlarda, qazaxlarda və türkmənlərdə rast gəlinir. Hələ VI əsrdə suriyalı tarixçi Zaxari Ritor Şimali Qafqazda Hun əyalətində yaşayan müxtəlif tayfalar arasında türkdilli “Abdal” tayfasının da adını çəkib, alban tarixçisi Musa Kalankatlı Albaniyada yaşayan “Abdal” tayfasının adını qeyd edib. “Abdal” adına ölkəmizin digər əraziləri ilə yanaşı, Ordubad rayonu ərazisində də rast gəlinir.

1924-cü ildən şəhər statusu alan Laçın şəhəri 1930-cu ildən rayon mərkəzinə çevrilib. Şəhərin adı görkəmli Azərbaycan yazıçısı Tağı Şahbazi Simurq tərəfindən yaxınlıqdakı dağın adına uyğun olaraq Laçın adlandırılıb. “Laçın” sözü “məğrurluq” mənasını bildirir.

Tarixçilər onu da vurğulayırlar ki, ermənilərin bu ərazidə məskunlaşması 1828-ci il Rusiya-İran müharibəsindən sonraya təsadüf edir. Həmin ildən Rusiyanın himayəsi altında Cənubi Qafqaza Osmanlı dövlətindən və İrandan ermənilərin kütləvi şəkildə köçürülüb məskunlaşdırılmasına başlanılıb. O zaman bu torpaqlara səfil, ac-yalavac gələn ermənilər 1905-1907 və 1918-1920-ci illərdə Laçının da daxil olduğu Zəngəzur bölgəsində türk-müsəlman əhaliyə qarşı qanlı qırğınlar törədib və nəticədə, təxminən, yarım milyon müsəlman həlak olub.

Hələ sovetlər dönəmində Azərbaycana rəhbərlik etdiyi zaman ermənilərin Qarabağ ərazilərinə əsassız iddialarını bilən, bu əzəli Azərbaycan torpaqlarının inkişafına və tərəqqisinə çalışan ulu öndər Heydər Əliyev Laçın haqqında 1971-ci ildə dağ rayonlarının iqtisadiyyatını yüksəltmək üçün qərar qəbul edib, qısa zaman kəsiyində Laçının sürətli inkişafına nail olunub. İstər iqtisadi cəhətdən, istərsə də abadlıq-quruculuq sahəsində dağ rayonları sırasında o zaman Laçın birinci yerdə dururdu.

### *Şanlı Azərbaycan bayrağının Laçında dalğalanacağı gün uzaqda deyil*

Azərbaycanın, azərbaycanlıların bir xalq kimi tarixdə yaşamasının əsas səbəblərindən biri də bu torpağın övladlarının həmişə Vətənə bağlı olması, Vətən uğrunda mübarizəni davam etdirməsidir. Mutant canlılara bənzəyən ermənilər anlamalıdırlar ki, vətənpərvər azərbaycanlılar Laçının işğalı faktı ilə heç vaxt barışmayacaq, bu diyarın düşməndən azad edilməsi üçün tarixi missiyanı yerinə yetirəcəklər. Çünki Laçın millət fədailəri üçün böyük əhəmiyyət kəsb edən strateji yurd yerimizdir və məqamında həmin yurdun həqiqi sahiblərinə qaytarılması üçün bütün imkanlar səfərbər ediləcəkdir.

Bu gün münaqişənin nizama salınması prosesində Azərbaycan Prezidenti İlham Əliyev humanizm prinsiplərini üstün tutaraq, ilk növbədə, münaqişənin sülh yolu ilə həllinə çalışır. Lakin ölkə başçısı Azərbaycan xalqı və dövlətinin bu işğal, etnik təmizləmə siyasəti və torpaqlarımızın müvəqqəti olaraq itirilməsi ilə heç vaxt barışmayacağını dəfələrlə bildirməklə yanaşı, öz torpaqlarımızı azad etmək üçün bütün vasitələrdən istifadə olunacağını da qətiyyətlə vurğulayır. Ordumuzun ötən ilin aprel ayında qazandığı böyük zəfər düşmən tapdağı altındakı torpaqlarımızın azad olunacağına inamı daha da artırıb. Biz əminik ki, Azərbaycan Ordusunun Cocuq Mərcanlıdan başlayan zəfər yürüşü çox yaxın zamanda Laçın şəhərini də əhatə edəcəkdir.

**Rauf KƏNGƏRLİ**

***Kompüter qurğularının və informasiya sistemlərinin fəaliyyətinə ciddi təsir edən virus dünyanın 150 ölkəsində 300 mindən çox kompüter sistemində yayılıb.***

# Beynəlxalq kiber məkanda qlobal virus epidemiyası qeydə alınıb

“WannaCry” adlandırılan bu virusun, əsasən, “Windows” əməliyyat sistemlərindəki şəbəkədə faylların paylanması protokolunda mövcud olan boşluqdan istifadə etməsi ilə yayıldığı aşkarlanıb. Yoluxmuş server və kompüterlərdəki bütün növ fayllar – sənədlər, şəkillər, videolar, məlumat bazaları şifrələnir, kompüterin fəaliyyətinə manеə yaradılır və deşifrələnmə üçün müəyyən məbləğ tələb edilir. Bu məbləğ 3 gün ərzində ödənilmədikdə qarşıdakı 7 gün ərzində ikiqat ödəniş tələb olunur, əks-təqdirdə məlumatların tamamilə silinəcəyi barədə xəbərdarlıq edilir.

Qısa müddətdə bütün dünyada geniş yayılan bu virusdan hazırda qorunmaq üçün istehlakçılara öz server və kompüterlərində bəzi profilaktik işlər həyata keçirmələri tövsiyə edilir.

Qeyd edək ki, “Microsoft” şirkətinin “Windows” əməliyyat sistemində bu ilin mart ayında aşkar olunmuş boşluğun aradan qaldırılması ilə bağlı 14 mart tarixdə “Microsoft Security Bulletin MS17-010-Critical” adlı yenilənməsi hazırlanıb. Virusun bu qədər sürətlə yayılması onu göstərir ki, heç də bütün istifadəçilər bu əlavəni öz kompüterlərinə yükləməyib. Hazırda müxtəlif antivirus proqramlarında virusa qarşı müvafiq təzələnmələr aparılıb. Kompüter sistemlərini təhlükədən qorumağınız üçün Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzi yerli istifadəçilər üçün aşağıdakıları tövsiyə edir:

*-istifadə etdiyiniz kompüter və informasiya sistemlərinizdəki “Windows” əməliyyat sistemlərində mövcud olan boşluqların aradan qaldırılması üçün dərhal təzələnmə “patch” proqramının yüklənməsi və quraşdırılması işlərini aparmağı;*

*-e-poçt vasitəsilə göndərilən naməlum faylları, tanış olmayan hər hansı digər mənbəyə keçidi klikləməməyi;*

*-vacib sənədlərin ehtiyat nüsxəsini yaratmağı;*

*-aktiv və antivirus bazası aktual olan antivirusdan istifadə etdiyinizdən əmin olmağı;*

*-əgər hər hansı antivirus proqramı istifadə edilmirsə, “Microsoft Defender” antivirus proqramından istifadə etməyi;*

*-antivirus proqramı vasitəsilə kompüterinizdə mövcud ola biləcək yoluxmaları yoxlamağı;*

*-internetdən istifadə zamanı təhlükəsizlik qaydalarına riayət etməyi.*

Muxtar respublika sakinləri baş vermiş yoluxmalar barədə xəbərdar olduqda və ya əməli yardıma ehtiyac duyduqda Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzinin “209” nömrəli qaynar xəttinə zəng edə və ya rytn@nakhchivan.az elektron ünvanına yaza bilərlər.

Yuxarıda qeyd edilən profilaktik tədbirlərin həyata keçirilməsi sizin elektron məlumatlarınızın qorunmasını təmin edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzi***

# İdmançımız IV İslam Həmrəyliyi Oyunlarında bürünc medal qazanıb

*Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunları davam edir. 57 dövlətin 6000-ə yaxın idmançısının mübarizə apardığı yarışda artıq boksçularımız final mərhələsinə adlayıblar.*

Naxçıvan boks məktəbinin yetirməsi Tayfur Əliyevin də mübarizə apardığı 56 kiloqram çəki dərəcəsində finalçılar məlum olub. İdmançımız 1/4 finalda mərakeşli dəri əlcək sahibi Toufik Kaçfini məğlub edərək bürünc medalı qazanıb. Həlledici qarşılaşmada rinqə çıxmaq üçün Özbəkistan təmsilçisi Abdulxay Şaraxmatovla qarşılaşan idmançımız məğlub olub və islamiadanı bürünc medalla başa vurub. Bu çəki dərəcəsində final görüşü türkmənistanlı boksçu Yakub Meredovla Abdulxay Şaraxmatov arasında olacaq.

**Ceyhun MƏMMƏDOV**

# Elan

Naxçıvan Dövlət Universiteti 2016-2017-ci tədris ilinin yaz imtahan sessiyası ilə əlaqədar qiyabi tələbələrin nəzərinə çatdırır:

1. Universitetin qiyabi şöbəsinin bütün ixtisaslarında (əlavə ali təhsil də daxil olmaqla) yaz imtahan sessiyası 1 iyun 2017-ci il tarixdən başlayır və 20 iş günü davam edir.

2. Bütün qiyabi tələbələrin sessiyada iştirakı zəruridir.

***Rektorluq***

***İtmişdir***

“Xeyriyyə” Cəmiyyətinə məxsus 001959 nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 411